Azərbaycan Respublikası Vəkillər Kollegiyasının
Rəyasət Heyətinin sədri
cənab Anar Bağırova

Cəfərova Nərmin Həbibzadə qızı tərəfindən
Ünvan: Siyəzən şəhəri, Tofiq İsmayılov küçəsi 48
Əlaqə telefonu: 070 604 02 42

TƏŞƏKKÜR MƏKTUBU

Hörmətli Anar müəllim!

Bu məktubu Sizə dərin minnətdarlıq və hörmət hissi ilə ünvanlayıram. Rəhbərlik etdiyiniz Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü, Abşeron rayon Vəkil Bürosunun vəkili **Mirzəməmmədova Gülnar Mirzahid qızının** göstərdiyi yüksək peşəkarlığa və vicdanlı fəaliyyətə görə öz təşəkkürümü bildirmək istəyirəm.

Mənim tərəfim olduğum **2(5-154)-137/2026** nömrəli məhkəmə işi üzrə hüquqlarımın müdafiəsini Gülnar xanım böyük məsuliyyətlə üzərinə götürdü. Məhkəmə prosesi boyu o, məsələyə həssaslıqla yanaşdı. Məni mütəmadi olaraq hüquqi prosedurlar barədə ətraflı məlumatlandırdı və bütün mərhələlərdə yanımda oldu. Onun savadı, prinsipial mövqeyi və işinə olan peşəkar münasibəti sayəsində bu məhkəmə işində ədalətli qərar qəbul edildi və iş bizim xeyrimizə həll olundu.

Vətəndaşların hüquq və azadlıqlarının etibarlı şəkildə qorunması istiqamətində gördüyünüz işlərə və sıralarınızda Gülnar xanım kimi savadlı, məsuliyyətli vəkillərin yetişməsinə yaratdığınız şəraitə görə şəxsən Sizə və vəkilim Gülnar Mirzəməmmədovaya dərin təşəkkürümü bildirirəm.

Sizə və kollektivinizə şərəfli və məsuliyyətli fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram.

Hörmətlə,
Cəfərova Nərmin Həbibzadə qızı
İmza: _____

Tarix: 19 noyabr 2026-cı il

Vəkillər Kollegiyasının
Rəyasət Heyəti
Daxil olma № 5088
«24» 11 2026